| | |
|---|---|
| Aktın növü | Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Kollegiyasının Qərarı |
| Qəbul edildiyi tarix | 25.01.2018 |
| Qeydiyyat nömrəsi | 180102500006 |
| Adı | “ASAN ödəniş” sisteminin ödəniş barədə çıxarışlarının uçotu Qaydaları”nın təsdiq edilməsi haqqında |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | 07.02.2018 |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | 010.150.040 |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | 15201801250006 |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | 06.02.2018 |

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin kollegiyasının 2018-ci il 25 yanvar tarixli 180102500006 nömrəli qərarı ilə təsdiq edilmişdir

# “ASAN ödəniş” sisteminin ödəniş barədə çıxarışlarının uçotu Qaydaları

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 27 avqust tarixli 118 nömrəli qərarı ilə təsdiq edilmiş “Müəssisə və təşkilatların, habelə sahibkarlıqla məşğul olan fiziki şəxslərin iş xüsusiyyətlərinə uyğun olaraq ciddi hesabat blanklarının tərtibi və tətbiqi Qaydaları”na uyğun olaraq hazırlanmışdır və “ASAN ödəniş” sisteminin (bundan sonra - sistem) ödəniş barədə çıxarışlarının (bundan sonra – sistemin çıxarışları) uçotu qaydalarını müəyyən edir.

1.2. Sistemin çıxarışları xüsusi ödəmə terminalları, mobil telefon aparatları və internet vasitəsi ilə ödəniş aparılarkən (istənilən hesablaşma formasından (nağd pul, ödəniş kartları, bank hesabları və s.) istifadə edilməklə) sistem tərəfindən avtomatik rejimdə generasiya olunan mədaxil qəbzləridir.

1.3. Sistemin çıxarışları sistem vasitəsilə aparılmış ödənişlərin təsdiqidir və onların oxşar rekvizitlərə malik olan, ciddi hesabat blankları sayılmayan ilkin uçot sənədləri ilə əvəz edilməsinə yol verilmir.

1.4. Sistemin çıxarışlarının bu Qaydalarda müəyyən edilmiş rekvizitləri özündə əks etdirən forması Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən təsdiq edilir.

## 2. Sistemin çıxarışlarının rekvizitləri

2.1. Sistemin çıxarışları ödəyicinin hansı ödəniş alətindən istifadə etməsindən asılı olmayaraq eyni formaya malikdir və aşağıdakı rekvizitləri özündə əks etdirir:

2.1.1. sistemin adı;

2.1.2. mədaxil qəbzinin unikal nömrəsi;

2.1.3. ödəyicinin tam adı;

2.1.4. ödəyicinin FİN-i və/və ya VÖEN-i;

2.1.5. dövlət qurumunun və ya kütləvi xidmət müəssisəsinin daxili informasiya sistemində ödəyicinin eyniləşdirmə məlumatları (müvafiq olaraq kodu, abonent kodu, sənəd nömrəsi, telefon nömrəsi və s.);

2.1.6. ödənişin tarixi;

2.1.7. dövlət qurumunun və ya kütləvi xidmət müəssisəsinin adı;

2.1.8. xidmət mərkəzinin adı (ödənişlər Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan "ASAN xidmət" mərkəzləri üzrə aparıldıqda);

2.1.9. ödənişin məbləği;

2.1.10. xidmətin adı;

2.1.11. ödəniş aləti;

2.1.12. tranzaksiya nömrəsi;

2.1.13. xidmət vasitəsi;

2.1.14. büdcə təsnifatının kodu (ödənişlər dövlət büdcəsinə aparıldıqda);

2.1.15. büdcə səviyyəsinin kodu (ödənişlər dövlət büdcəsinə aparıldıqda);

2.1.16. xəzinə hesabı (qeyri-büdcə ödənişləri aparıldıqda bank hesabı).

2.2. Əməliyyatların xarakterindən asılı olaraq sistemin çıxarışlarına əlavə rekvizitlər daxil edilir.

## 3. Sistemin çıxarışlarının uçotunun aparılması

3.1. Sistem vasitəsilə aparılan ödənişlər üzrə çıxarışların uçotu sistemin məlumat bazasında avtomatlaşdırılmış qaydada aparılır.

3.2. Sistemin çıxarışlarının nömrələrinin sistemdə unikallığı mərkəzləşdirilmiş qaydada təmin olunur.

3.3. Aparılan ödənişin təsdiqi barədə çıxarış dərhal və ya ödəyicinin müraciəti əsasında istənilən vaxt, o cümlədən təkrar əldə edilə bilər.

3.4. Sistem vasitəsi ilə aparılan ödənişlər haqqında məlumatlar "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununun 29.1.4-cü maddəsində nəzərdə tutulmuş müddətdə elektron imza ilə təmin olunmuş elektron sənəd şəklində saxlanılır.